Dünya dözümlülərindir

və ya Şakir Əlifoğluya açıq məktub

Şakir müəllim, deyilənə görə bir gün atası Yusif bəy balaca Səmədin əlindən tutub gətirir Qori Seminariyasına. Müdir Səmədin çox cılız və sısqa olduğunu görüb, onu qəbul eləmək istəmir və Yusif bəyə məsləhət görür ki, qoy bir-iki il də keçsin, sonra gətirərsiniz, bu arıq canıynan o dərsləri çatdıra bilməz. Az qala Yusif bəyin razılaşdığı məqamda balaca Səməd dillənir: "Ay müdir bəy, siz nə bilirsiniz ki, bu artq sinənin altında nələr yatır". Balaca Səmədə diqqət kəsilən müdir təəccüblə və həm də uzaqgörənliklə: "Bu uşaq gələcəyin böyük şəxsiyyəti olacaq", - deyir və onu seminariyaya qəbul edir.

Mən bu yazımda səni böyük Səməd Vurğunla müqayisə etmək fikrindən çox uzağam. Amma bu misalı çəkməkdə də məqsədim var. Səni tanıyanların çoxu, səninlə ünsiyyətdə olanların, təmasda bulunanların əksəriyyəti bilmir ki, sənin o arıq, cılız və sısqa canında nə qədər dözüm, nə qədər səbat, öz arzusuna, istəyinə çatmaq üçün nə qədər inadlı təpər var və çoxları da bilmir ki, bu arıq oğlanın iç dünyasına neçə dünyalar sığıb baş-başa veriblər. Hətta səni tanıyanların çoxları bilmir ki, hələ şagird ikən imzası müxtəlif mətbu orqanlarda göyərən, başını anasının dizlərinə söykəyib onun nağıl dünyasında var-gəl edən bu uşaq məlum hadisələr vaxtı erməni əsirliyindən öz həyata inamı, dözümü və təpəri ilə necə qaçıb qurtula bilib. Çoxlarına qaranlıqdır ki, anasının danışdığı həmin nağıllar dünyasında var-gəl edən, onun ahənrübasında çabalayan bu uşaq arxasız-köməksiz necə ali məktəb tələbəsi olacaq, müəllim kimi müxtəlif yerlərdə cüzi əmək haqqı ilə necə fəaliyyət göstərəcək və uşaq vaxtı eşitdiyi, oxuduğu nağılların sehrindən qurtula bilməyərək o nağıl dünyasından mövzu götürüb dissertant olacaq, həmişə qarşılaşdığı haqsızlıqların, atgetməz işlərin "acığına" həmin nağıllarda ədalətli şah axtaracaq və bu günlərdə, lap dəqiqi noyabrın 10-da uğurla müdafiə edib, elimizin-obamızın alimlərinin boy sırasını bir alim oğluyla artıracaq.

Şakir müəllim, mən sənin uzun illər - 1996-cı ildən üzübəri həmin elmi işinlə bağlı çəkdiyin əzab-əziyyətlərin, məhrumiyyətlərin, yazdığın elmi məqalələri "qoltuğuna vurub" müxtəlif mətbu orqanların, əlaqədar instansiyaların qapılarının dabanlarını necə çıxarmağının canlı şahidiyəm. Və bütün bunları sənin yorulmadan, usanmadan, təpərli bir inadla, davamlı bir səylə etməyin də gözlərim önündədir. Açığını deyim, hərdən sənə acıyırdım; istəyirdim deyəm ki, əl çək bu "sevdadan". Çünki bu, sirr deyil ki, bu iş arxası, dayağı, bir saqqaltərpədəni olmayanlar üçün az qala Sizif əzabı kimi bir şeydir. Amma həmişə sənə ürək-dirək verərdim, səbrli olmağı tövsiyə edərdim, "çəkilən zəhmət köhnəlməyən paltar kimidir, nə vaxtsa özünə qayıdacaq", - deyərdim. Mənə elə gəlir ki, heç bunları deməyə də ehtiyac yox idi, çünki sən təpərli inadınla ayaq geri qoymaq istəmirdin. Bir də ki, bütün bu illərdə görmüşəm ki, sən "bildiyini dədənə də verən" deyilsən.

Nəhayət, keçirilən yuxusuz gecələr çəkilən əzablar, rast gəlinən məhrumiyyətlər öz bəhrəsini verdi və şükürlər ki, biz sənin alim kimi özünü təsdiq etməyinin şahidi olduq. Müdafiədən sonrakı ziyafətdə kimlər iştirak etmirdilər: AMEA-nın Folklor institutunun direktoru, filologiya elmləri doktoru Müdafiə Şurasının sədri Hüseyn İsmayılov, Şuranın elmi katibi filologiya elmləri namizədi Rza Xəlilov, sənin elmi rəhbərin, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Azad Nəbiyev, professorlar İsrafil Abbaslı, Sədnik Paşayev, İsmayıl Kazımov, Rüstəm Rüstəmzadə, Məhərrəm Cəfərli (opponent), görkəmli qələm sahibləri Əli Rza Xələfli, Elçin Kamal, Fariz Çobanoğlu və başqaları... Ziyafətdə Cəbrayıl RİH-nin başçısı M.Quliyevin, YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyevin, Cəbrayıl RTŞ-nin müdiri Validə Həsənovanın iştirakı rayon rəhbərliyinin elmə, ziyalıya, alimə qayğı və diqqətinin təzahürü idi.

Şakir müəllim, həmin toplantıda görkəmli alimlərin, qələm sahiblərinin, rayon rəhbərliyinin sənin haqqında etdikləri çıxışlar, sənin istedadına, zəhmətsevərliyinə ünvanladıqları xoş sözlər məni riqqətə gətirir və xoş duyğular yaradırdı. Və sən öz arıq vücudunla bir daha böyüyürdün gözümdə. Nə yazıqlar ki, mən səhhətimlə əlaqədar olaraq axıra qədər o tədbirdə iştirak etmədim və sənin haqqında düşündüklərimi, bildiklərimi,

duyduqlarımı izhar edə bilmədim. Ona görə də bu məktubu yazmaqla öz borcumdan çıxmaq istədim.

Şakir müəllim, məlum olanda ki, sənin eyni vaxtda mərhum yazıçı və alim Əzizə Cəfərzadənin doğması Afaq xanım Ramazanova da "Azərbaycan folklorunda qadın (ana) yaradıcılığı" mövzusunda dissertasiya müdafiə edib, xatirələr məni Əzizə xanımlı günlərə apardı. O Əzizə xanım ki, mən onu tariximizin, ədəbiyyatımızın qaraçuxası hesab etmişəm və onun haqqında silsilə yazılar yazmışam. Əzizə xanımla mənim çox doğma, məhrəm ana-bala münasibətimiz təcəlla tapmışdı. Mən ona həmişə "Əzizə xanım" deyəndə, mənə irad tutardı, təkidlə 'tələb" edərdi ki, ona "Əzizə ana" deyim, o da məni öz növbəsində "oğlum" deyə çağırardı. Bir az gec görünəndə zəng edər, ilıq, yalnız ona məxsus bir lətiflikiə "haradasan, ay Sahib, ay oğlum, niyə itib-batmısan", - deyə giley- güzar edərdi. Mənə bağışladığı kitablarında "Sevimli oğlum Sahibə, böyük məhəbbətlə", - yazardı.

Niyə bu böyük insanı belə xatırladım. Ona sevinirəm zəhmətkeş, sözün müstəqil mənasında əzabkeş alimin, gözəl yazıçının davamçısı var və ənənə davam edir. Afaq xanımın ölkəmizin alimləri cərgəsinə qoşulması əminəm ki, Əzizə xanımın ruhunu xoşhal edəcəkdir.

Bir fakt da maraqlıdır ki, siz, - yəni sənin Afaq xanım əməkdaşı olduğunuz institutda təzəcə yaradılmış Müdafiə Şurasında ilk müdafiə edən alimlər kimi yadda qalacaqsınız.

Əlifoğlu, sənin təfəkkürünü, çalışqanlığını, çevikliyini, "burdan vurub ordan çıxmaq" yorulmazlığını təqdir edənlərlə yanaşı, sənə ağız büzənlər, dalda-bucaqda, bəzən də lap aşkarda səni ironiya və istehza ilə qarşılayanlar da az olmayıb. Amma sən öz istedad və bacarığınla onlara kim olduğunu sübut edə bildin. Səndə, sənin içində hazır bir alimin mövcudluğunu görüb qiymətləndirənlər, əlindən tutanlar da oldu. Müdafiə ərəfəsində Cəbrayıl RİH-nin başçısı Mahmud Quliyevin sənə mənəvi və maddi dəstək göstərməsi məni riqqətə gətirmişdi, xoş duyğuların təcəlla tapmasına rəvac vermişdi. Söhbət bu mənəvi və maddi dəstəyin kim tərəfindən və necə edilməsindən yox, rayon rəhbərinin elmə, ziyalıya, alimə verdiyi qiymətdən, göstərdiyi diqqət və qayğıdan gedir.

Şakir müəllim, sənin doğma qəzetimiz "Xudafərin"in işıq üzü görməsində göstərdiyin xidmətləri qeyd etməmək ən azı diqqətsizlik, bu işdə çəkdiyin əziyyətləri dilə gətirməmək insafsızlıq olardı. Xüsusən də bu son bir ildə sən doğma qəzetimizə çox yüksək diqqət və qayğı ilə yanaşmısan. Səhhətimlə bağlı əlaqədar instansiyalara çox gedib-gələ bilmədiyimdən, bu yükü də sən çəkmisən. Redaksiyaya daxil olan materialları yığdırandan sonra oxumaq və redaktə etmək üçün dəfələrlə mənə gətirmisən. Mənim iradlarımı, redaktələrimi dinməz-söyləməz qəbul edib, həmin yazıları təkrar yığdırıb yenə qayıtmısan yanıma. Qəzet səhifələnəndən sonra isə onu "qoltuğuna" vurub yenə də son redaktə üçün mənə gətirmisən. Qısaca olaraq deyim ki, sən son bu bir ildə "Xudafərin"in əzabkeşi, yükdaşıyanı və həm də əsas yazarı olmusan.

Gəl, açığını etiraf edək ki, bəzən sənin üzüyumşaqlığından istifadə edib bəziləri öz zəif, maraqsız və hətta mən deyərdim ki, məzmunsuz yazılarının qəzetdə getməsi üçün, həmin yazı müəlliflərinə yaşıl işıq yandırmaq istəyinlə bağlı aramızda narazılıqlar da olub. Elə vaxt da olub ki, məni "yumşalda" bilib, "sırıdığın" yazılar da işıq üzü görüb. Mən bütün bunları sənin sadədilliyinin və yumşaqlığının ayağına yazmışam.

Şakir müəllim, çox vaxt sənin zəhmətsevərliyinə, yorulmazlığına qibtə etmişəm, düşünmüşəm ki, kaş səndə olan dözüm, yazı yazmağa belə inadlı təpər və yorulmazlıqdan məndə də olaydı. Mən adətən başımda dolanan, beynimdə özünə yurd salmış, yuva qurmuş mövzuları yazmağı bu gündən sabaha qoya-qoya vaxt ötürürəm. Bu məktubu da sənə çoxdan yazmaq istəyirdim, amma yenə həmin "allahsız" ətalət elə elədi ki, qəzet səhifələnən ərəfədə yazdım. Amma səndə belə deyil; bu gün haqqında söhbət gedən mövzunu sabah yazı şəklində hazır edirsən. Elə bu yorulmazlığın, bu maraq və həvəsin sayəsində hər həftə müxtəlif mətbu orqanlarda sənin imzanla rastlaşıram. Mən inanıram ki, sənin heç əvvəlləri demirəm, son beş-on ildə folklorla bağlı, onun tədqiqinin və araşdırılmasının inikası olan yazılarını bir yerə toplasan, böyük həcmli bir kitab alınar. Çox istərdim ki, rayonumuzun imkanlı adamları "insafa gəlib" sənin bütün bu elmi yazılarının küll halında kitab şəklində işıq üzü görməsinə yardımçı olaydılar. Bundan isə yalnız dəyərli bir vəsait kimi şagirdlərimiz, məktəblərimiz qazanardı, vallah.

Əlifoğlu, istedad dözüm və səbrlə birləşəndə xariqələr yaranır, cəmiyyətin yalnız qazana biləcəkləri meydana çıxır. Dünya isə həmişə dözümlülərin olub. Bu keyfiyyətlər isə səndə var, deməli, hələ çox işlər görə bilərsən. Və inanıram ki, sən bu təpərlə tezliklə doktorluq dissertasiyasını da müvəffəqiyyətlə müdafiə edəcəksən.

Bir də ki, ay Şakir, artıq alim də oldun, daha subaylığın daşını atmaq vaxtıdır. Eşitdiyimə görə əməkdaşı olduğun institutun direktoru Hüseyn müəllim sənin toy xərcini öz boynuna çəkib. Ay zalım, qurtar daa dostlarını bu intizardan.

Elmin çətin, daşlı-kəsəkli yollarında sənə təpərli addımlar arzusu ilə:

Sahib ABDULLAYEV

"Xudafərin" qəzeti, №11-12, 2006-cı il